# MÜBARİZ KEŞİKDƏ

1 noyabr 2018-ci il
Cümə axşamı
№ 43 (3407)
1933-cü ildən çıxır
www.mk.mia.gov.az
Qiyməti 40 qəpik
AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.

# BAKIDA VI BEYNƏLXALQ HUMANİTAR FORUM KEÇİRİLİB

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FORUMUN RƏSMİ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK EDİB

Oktyabrın 25-də Heydər Əliyev Mərkəzində VI Bakı Beynəlxalq Humanitar Forumu işə başlayıb.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak ediblər.

"Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumunun açılışında dövlətimizin başçısı nitq söyləyib.

Sonra Rusiya Federasiyası Baş nazirinin müavini xanım Olqa Qolodets Prezident Vladimir Putinin Forum iştirakçılarına təbrik məktubunu oxuyub.

BMT baş katibinin müavini Rəşid Xalikov, ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri, UNESCO-nun baş direktorunun müavini Çu Sin, Parlamentlərarası İttifaqın prezidenti xanım Qabriela Baron çıxış ediblər.

Bununla da VI Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimi başa çatıb.

Açılış çıxışlarından sonra Forum işini plenar və işçi sessiyalarla davam etdirib.

Oktyabrın 25-də VI Beynəlxalq Humanitar Forum çərçivəsində Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının, İqtisadiyyat Nazirliyinin və Birləşmiş Millətlər Təşkilatının ölkə üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə Dayanıqlı İnkişafa dair Bakı Forumu işə başlayıb.




"Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində regional tərəfdaşlığın gücləndirilməsi" mövzusuna həsr olunan Forumda əvvəlcə Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olunması istiqamətində görülən işlərə və qazanılan nailiyyətlərə dair videoçarx nümayiş etdirilib.

Sonra BMT baş katibinin müavini, BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının icraçı katibi Olqa Alqayerovanın və Dünya Səhiyyə Təşkilatının (DST) baş direktoru Tedros Adhanomun videomüraciəti təqdim olunub.

VI Beynəlxalq Humanitar Forum çərçivəsində Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının, İqtisadiyyat Nazirliyinin və Birləşmiş Millətlər Təşkilatının ölkə üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində regional tərəfdaşlığın gücləndirilməsi" mövzusunda keçirilən Dayanıqlı İnkişafa dair Bakı Forumu oktyabrın 26-da işini davam etdirib.

Forum çərçivəsində "2030-cu ilədək dayanıqlı inkişaf üçün sülhsevər və inklüziv cəmiyyətləri təşviq etmək, hamı üçün ədalət məhkəməsinə çıxış imkanını təmin etmək və bütün səviyyələrdə səmərəli, məsuliyyətli və inklüziv təşkilatlar qurmaq", "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında BMT-nin İnkişaf Proqramının Aktuallaşdırma, Sürətləndirmə və Siyasətə Dəstək Missiyasının rolu" və "Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üçün təmiz su təchizatı, o cümlədən iqlim dəyişikliyi və onun təsirləri ilə mübarizə aparmaq üçün əməkdaşlığın gücləndirilməsi" mövzularında sessiyalar keçirilib.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAX RAYONUNA VƏ ŞƏKİ ŞƏHƏRİNƏ SƏFƏRİ

Oktyabrın 28-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qax rayonuna səfərə gediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin Qax şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 28-də Kənd Təsərrüfatı Nazirliyinin yenidən qurulan Damazlıq İpəkçilik Stansiyasının açılışında iştirak ediblər.

Kənd təsərrüfatı naziri İnam Kərimov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya burada yaradılan şərait barədə məlumat verib.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun açılışında iştirak edib.

Prezident İlham Əliyevə Qorağan-Qax-Zaqatala avtomobil yolunun Qax-Zaqatala hissəsinin yenidən qurulması barədə də məlumat verilib.

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Ulu Aqro" MMC-nin Qax Aqroparkının açılışında iştirak ediblər.

Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 28-də Qax şəhərində "Ulu Yurd" Məhdud Məsuliyyətli Cəmiyyətinin "Yurd Hotel" mehmanxanasının açılışında iştirak ediblər.

Oktyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəki şəhərinə səfərə gəliblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsi önünə gül dəstələri qoyublar.

Oktyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəki şəhərində inşa olunan Heydər Əliyev Mərkəzinin, Bayraq Muzeyinin, Şəki-Kiş avtomobil yolunun, Heydər Əliyev Fondu tərəfindən Şəki şəhərində qarışıq tipli uşaq evi üçün inşa olunan yeni binanın və "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzinin açılışlarında iştirak edib.

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəki "ASAN Həyat" kompleksinin açılışında iştirak ediblər.

Prezident İlham Əliyev kompleksin rəmzi açılışını bildirən lenti kəsib.

Dövlətimizin başçısı Şəki "ASAN Həyat" kompleksini işə salıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksdə yaradılan şəraitlə tanış olublar.

Şəki "ASAN Həyat" kompleksində də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin layihəsi olan "ASAN Peşə" mərkəzi yaradılıb.

Dövlətimizin başçısı və birinci xanım "ASAN Peşə" mərkəzi ilə tanış olublar.

Dövlətimizin başçısına "ASAN Viza" sistemində yeniliklərin təqdimatı da olub.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəki "ASAN Həyat" kompleksinin əməkdaşları ilə görüşüblər.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

**Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 24-də ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonu qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı oktyabrın 25-də BMT baş katibinin müavini Rəşid Xalikov ilə görüşüb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri oktyabrın 25-də Rusiya Federasiyası Baş nazirinin müavini xanım Olqa Qolodetsi qəbul edib.**

❖❖❖❖❖

***Oktyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyev Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru Anatoli Torkunovu qəbul edib.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı oktyabrın 25-də İSESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycrini qəbul edib.**

❖❖❖❖❖

***Oktyabrın 25-də ölkəmizin rəhbəri UNESCO baş direktorunun müavini Çu Sini qəbul edib.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 25-də Parlamentlərarası İttifaqın prezidenti xanım Qabriela Baronu qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı oktyabrın 25-də Uruqvay Nümayəndələr Palatasının sədri Xorxe Qandinini qəbul edib.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri oktyabrın 25-də Sloveniya Milli Şurasının sədri Aloyz Kovşkanı qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı oktyabrın 25-də Çex Respublikasının milli bayramı münasibətilə Prezident zati-aliləri cənab Miloş Zemana təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 26-da Türkiyə Respublikasının yaranmasının 95-ci ildönümü münasibətilə Prezident zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı oktyabrın 29-da Pittsburq şəhərində sinaqoqa silahlı hücum nəticəsində insan tələfatı ilə əlaqədar Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa başsağlığı teleqramı göndərib.***

❖❖❖❖❖

**Oktyabrın 29-da dövlətimizin başçısı baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar İndoneziya Respublikasının Prezidenti zati-aliləri cənab Coko Vidodoya başsağlığı teleqramı göndərib.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 30-da İsveçrə Konfederasiyasının təhsil, araşdırma və innovasiya üzrə dövlət katibi Mauro Dell'Ambrogionu qəbul edib.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı oktyabrın 30-da Türkmənistan Respublikası Nazirlər Kabineti sədrinin müavini Məmmətxan Çakıyevi qəbul edib.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri oktyabrın 30-da Mərakeş Krallığının inzibati islahatlar və dövlət qulluğu naziri Məhəmməd bin Abdelkaderi qəbul edib.***

❖❖❖❖❖

**Oktyabrın 30-da dövlətimizin başçısı Braziliya Federativ Respublikasının Prezidenti seçilməsi münasibətilə zati-aliləri cənab Jair Bolsonaruya təbrik məktubu göndərib.**

# DEMOKRATİK VƏ HÜQUQİ DÖVLƏT QURUCULUĞUNUN ƏSAS QANUNU

Hər bir ölkənin konstitusiyası dövlətin mühüm atributu olaraq, onun uzun illər boyu üçün tutacağı mövqeyi müəyyənləşdirir. Həmçinin dövlətin konstitusiyası onun nə dərəcədə demokratik olduğunu, insan hüquq və azadlıqlarına nə dərəcədə təminat verdiyinin göstəricisidir...

Dünya xalqlarının tarixinə nəzər yetirdikdə onları bir-birindən fərqləndirən çoxsaylı cəhətlərlə qarşılaşırıq. Yerləşdikləri coğrafi məkan, malik olduqları etnik köklər, mədəni, dini, tarixi-siyasi faktorlar bu fərqliliyi yaradan başlıca səbəblərdir. İnsan birliklərinin qeyd etdiyim amillər əsasında toplum və xalq olaraq formalaşmağa başladığı zamandan bu yana onların mənsub olduqları özünəməxsus keyfiyyətlərin ifadə formaları həmişə müxtəlif simvollar və atributlarda öz əksini tapıb. Bu atributlardan məna və məzmun etibarilə ən güclü təsir qüvvəsinə malik olanı Bayraqdır...

Okytabrın 26-da respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Birləşmiş Millətlər Təşkilatı baş katibinin qanunun aliliyi və təhlükəsizlik institutları üzrə köməkçisi Aleksandr Zuyevi qəbul edib...

*Bax səh.2.*

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATLARI

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri, general-polkovnik Ramil Usubov oktyabrın 27-28-də Gəncə Şəhər Baş Polis İdarəsində daxili işlər orqanlarının fəaliyyətinə və səlahiyyətinə aid məsələlərlə əlaqədar növbəti qəbul keçirib.

Gəncə, Göygöl, Samux, Kəlbəcər, Şəmkir, Ağstafa, Tovuz, Gədəbəy, Qazax və Daşkəsən şəhər və rayonlarından, eyni zamanda, həmin bölgədə məskunlaşmış qaçqın və məcburi köçkünlərdən müraciət edən 51 vətəndaş ilə görüşən nazir onların polis orqanlarının fəaliyyəti ilə bağlı müraciətlərini şəxsən dinləyib, problemlərinin operativ şəkildə, mövcud qanunvericiliyə uyğun həlli üçün Nazirliyin aidiyyatı baş idarə və xidmət rəislərinə konkret tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti elə yerindəcə öz həllini tapıb.

Tədbirdə iştirak edənlər göstərilən diqqət və qayğıya, bölgələrdə mütəmadi olaraq vətəndaşların qəbulunun təşkilinə, icra orqanlarının rəhbərləri tərəfindən müraciətlərinə operativ münasibətə və həssas yanaşılmasına görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

*28 oktyabr 2018-ci il.*



**Okytabrın 26-da respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Birləşmiş Millətlər Təşkilatı baş katibinin qanunun aliliyi və təhlükəsizlik institutları üzrə köməkçisi Aleksandr Zuyevi qəbul edib.**

Qonağı salamlayan nazir son illər respublikamızın çoxsaylı beynəlxalq ictimai-siyasi, mədəni və idman tədbirlərinə ev sahibliyi etməsindən, A.Zuyevin belə mötəbər toplantılardan olan VI Bakı Beynəlxalq Humanitar Forumunda iştirakından məmnunluğunu ifadə edib.

Respublikamızın artıq 26 il müddətində Birləşmiş Millətlər Təşkilatının üzvü olduğunu nəzərə çatdıran cənab Ramil Usubov dünyanın bu ən mötəbər beynəlxalq təşkilatının ölkəmizdə fəaliyyət göstərən strukturları ilə Daxili İşlər Nazirliyi arasındakı sıx əlaqələrin mövcudluğunu xatırladıb. O, ikitərəfli münasibətlərin daha da genişləndirilərək çoxşaxəli əməkdaşlığa çevrilməsi və Azərbaycanın müstəqil dövlət kimi beynəlxalq aləmdə öz layiqli yerini tutması üçün olduqca fəal iş aparıldığını, qlobal sülh və təhlükəsizliyin qorunması üçün məsul olan bu qurumun daha səmərəli fəaliyyət göstərməsinə respublikamızın öz töhfəsini verdiyini vurğulayıb.

Daha sonra DİN-in əsas hüquq və vəzifələri, mövcud kriminogen durum, müstəqilliyin ilk illərində qarşılaşdığımız problemlər, Ermənistanın ölkəmizə təcavüzü nəticəsində torpaqlarımızın işğalı, ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra cəmiyyətin bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında aparılan islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində qazanılan uğurlar barədə qonağa məlumat verilib.

Azərbaycanın BMT-nin terrorçuluğa, transmilli mütəşəkkil cinayətkarlığa, narkotiklərin qanunsuz dövriyyəsinə, qanunsuz miqrasiyaya və insan alverinə qarşı mübarizə üzrə müvafiq Konvensiya və protokollarının iştirakçısı olaraq, bu təşkilatın bir çox xüsusi qurum və orqanları ilə səmərəli əməkdaşlıq mübasibətlərinin davam etdiyi məmnunluqla vurğulanıb. Qeyd olunub ki, təkcə son 5 ildə respublikada və ayrı-ayrı xarici dövlətlərdə BMT-nin təşəbbüsü ilə keçirilən müxtəlif tədbirlərdə daxili i şlər orqanlarının 500-dən çox əməkdaşı fəal iştirak edib.

Şəxsi heyətin peşəkarlığının daha da artırılmasından danışan cənab Ramil Usubov ulu öndər Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ali diqqət və qayğısı sayəsində daxili işlər orqanlarının maddi-texniki təminatının möhkəmləndirildiyini, nəticədə müasir informasiya-kommunikasiya texnologiyalarının, elmi-texniki tərəqqinin ən son nailiyyətlərinin əməliyyat-xidməti fəaliyyətdə tətbiqinin daha da genişləndiyini vurğulayıb. Hüquqazidd əməllərə qarşı təxirəsalınmaz operativ tədbirlərin görülməsi, hüquq qaydasına riayət edilməsinə videonəzarətin həyata keçirilməsi məqsədilə nazirlikdə "Təhlükəsiz Şəhər" Avtomatik İdarəetmə Sisteminin, "102- Zəng Mərkəzi" sisteminin yaradıldığı qeyd edilib.

Qonağın nəzərinə o da çatdırılıb ki, şəxsi heyət tərəfindən insan və vətəndaş hüquq və azadlıqlarının pozulması barədə müraciətlər nazirliyin daim diqqət mərkəzindədir. Belə müraciətlər operativ və obyektiv şəkildə araşdırılır, nəticələri məruzə olunur və müvafiq tədbirlər görülür.

Qəbula və ətraflı məlumata görə təşəkkür edən cənab Aleksandr Zuyev qısa müddətdə ölkəmizdə böyük quruculuq işlərinin getdiyinin, iqtisadiyyatın durmadan inkişaf etdiyinin şahidi olduğunu, heç şübhəsiz ki, bu tərəqqinin, sosial rifahın əsasında ölkəmizdə sabitliyin, əmin-amanlığın yaradılmasının dayandığını, Azərbaycanda təhlükəsizlik məsələlərinin uğurla həll olunduğunu, hüquq-mühafizə, o cümlədən polis orqanlarının bu istiqamətdə üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldiyini xatırladıb, BMT-nin Azərbaycandakı strukturları ilə Daxili İşlər Nazirliyi arasında əməkdaşlığın bundan sonra daha da genişlənəcəyinə əminliyini bildirib.

Səmimi və işgüzarlıq şəraitində keçən görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə olunub.

*26 oktyabr 2018-ci il.*



## QANAD OLA BİLSƏM, BAYRAQ OLA BİLSƏM...

**Dünya xalqlarının tarixinə nəzər yetirdikdə onları bir-birindən fərqləndirən çoxsaylı cəhətlərlə qarşılaşırıq. Yerləşdikləri coğrafi məkan, malik olduqları etnik köklər, mədəni, dini, tarixi-siyasi faktorlar bu fərqliliyi yaradan başlıca səbəblərdir. İnsan birliklərinin qeyd etdiyim amillər əsasında toplum və xalq olaraq, formalaşmağa başladığı zamandan bu yana onların mənsub olduqları özünəməxsus keyfiyyətlərin ifadə formaları həmişə müxtəlif simvollar və atributlarda öz əksini tapıb. Bu atributlardan məna və məzmun etibarilə ən güclü təsir qüvvəsinə malik olanı Bayraqdır.**

Bayraq xalqın öz düşüncəsində daşıdığı ideallları, onun milli mənsubiyyətini, siyasi dünyagörüşünün miqyasını, bir sözlə, millətin bütün özünəməxsus keyfiyyətlərinin məcmusunu xarakterizə edir. Lakin həqiqət budur ki, hər xalqa öz bayrağını dalğalandıra bilmək səadəti nəsib olmur.

Üçrəngli bayrağımız hələ 1918-ci il 9 noyabrda Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin iclasında qəbul edilmişdi. XI Qırmızı Ordu, sovetlər onu damdan, daşdan endirdi, əvəzində bayrağımızı özünü əsl azərbaycanlı sanan, əsl azərbaycanlı olan insanlarımızn ürəyinin, arzularının, ideallarının başına dikdi.

1990-cı ilin noyabrında bu bayraq Naxçıvanda ümummilli liderimiz Heydər Əliyev tərəfindən yenidən Azərbaycanın dövlət bayrağı kimi qaldırıldı. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Ali Məclisin sessiyasında Naxçıvanda dövlət bayrağı kimi rəsmən təsdiq edildi. 1991-ci ildə dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbulu ilə Azərbaycan Respublikası Demokratik Cümhuriyyətin varisi elan edildi və "Bir kərə yüksələn bayraq bir daha enməz" həqiqəti öz təsdiqini tapdı.

Ümummilli liderimiz bayrağımız haqqında deyirdi: "Azərbaycanın bayrağı, sadəcə, bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Bu bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də, gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin. Onda bayrağa olan məhəbbət eyni zamanda Vətənə, xalqa, dövlətə olan məhəbbətə bərabər olsun."

***Nənəm yuxularında Şuşanı tez-tez görürdü. Hər dəfə də onun kövrək, hüzünlü, amma həyat, yaşam dolu röyalarını biz də «görəndə», eşidəndə xəyalən az qala hər gün Qarabağa – Şuşaya qonaq gedərdik, quş olub, o gözəl, doğmadan-doğma Vətənin nağıllı dünyasında qanad çalıb uçardıq.***

***İndi o yuxular yoxdu, çünki nənəm bu dünyamızdan ayrılıb. İndi mən hər gün quş olub, bayrağa dönüb Şuşanın göylərində, düzlərində, dağlarında gəzib-dolaşmaq istəyirəm…***

***Ruhiyyə Əliyeva,***
***polis leytenantı***

## GÖRÜLƏN İŞLƏR MÜZAKİRƏ OLUNUB

**Oktyabrın 27-də Bakı Şəhər Baş Polis İdarəsində cari ilin 9 ayında cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmini sahələrində görülən işlərin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan geniş əməliyyat müşavirəsi keçirilib.**

Müşavirəni giriş sözü ilə açan baş idarənin rəisi, polis general-mayoru Mirqafar Seyidov qeyd edib ki, 9 ay ərzində iqtisadiyyatın inkişafının, strateji əhəmiyyətli dövlət proqramlarının, müxtəlif beynəlxalq ictimai, mədəni, humanitar və idman tədbirlərinin uğurla həyata keçirilməsinin mühüm şərtlərindən olan sabitliyin, əmin-amanlığın qorunub-saxlanılmasında paytaxt polisinin də böyük əməyi olub.

BŞBPİ-nin əməliyyat işləri üzrə rəis müavini, polis general-mayoru Elxan Həsənov hesabat dövründə paytaxt polisinin orqan və hissələri tərəfindən həyata keçirilən tədbirlərin nəticələri və qarşıda duran vəzifələr barədə məruzə ilə çıxış edib. O bildirib ki, Bakı şəhəri, eləcə də ayrı-ayrı rayonlar üzrə əməliyyat şəraiti kompleks təhlil edilib, xidməti fəaliyyətin səmərəliliyinin artırılmasına dair təkliflər hazırlanaraq icraya yönəldilib.

Hesabat dövründə paytaxtda Daxili İşlər Nazirliyi və Prokurorluq üzrə 8288 cinayət qeydə alınıb ki, onların da 88,5 faizi az ağır və böyük ictimai təhlükə törətməyən, 11,5 faizi ağır və xüsusilə ağır növlər olub.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə ümumi cinayətlər 9,4 faiz, ağır və xüsusilə ağır cinayətlər 38,4 faiz, şəxsiyyət əleyhinə olan cinayətlər 4,6 faiz, o cümlədən qəsdən sağlamlığa ağır zərərvurmalar 35,1 faiz, mülkiyyət əleyhinə olan cinayətlər 19 faiz, avtonəqliyyat vasitələrinin oğurluğu 3,4 dəfə, dələduzluqlar 37,3 faiz, avtonəqliyyatın qaçırılması 6,6 faiz, qanunsuz ağackəsmə 2 dəfə, insan alveri ilə bağlı cinayətlər isə 8,9 faiz azalıb. ***Ümumi cinayətlərin 79,8 faizinin, o cümlədən ağır növlərinin 80,5 faizinin, qeyri-aşkar şəraitdə baş verən 74,4 faizinin, xüsusən şəxsiyyət əleyhinə olan cinayətlərin 94 faizinin, o cümlədən qəsdən adamöldürmələrin 90,7 faizinin, adamöldürməyə cəhdlərin 100 faizinin, qəsdən sağlamlığa ağır zərərvurmaların 90,7 faizinin açılması təmin edilib.***

Məruzəçi qeyd edib ki, cinayətlərin profilaktikasında və açılmasında müasir informasiya texnologiyalarının tətbiqinin böyük əhəmiyyəti olub. Baş idarənin və ərazi polis orqanlarının "Təhlükəsiz Şəhər" xidmətinin operatorları tərəfindən 4334 hadisə aşkarlanıb, kameraların arxiv görüntülərindən istifadə edilməklə 219 bağlı cinayət açılıb. Bununla yanaşı, 57 soyğunçuluq və quldurluq cinayəti törədən 52 qrup, eləcə də 80 mənzil oğurluğunda şübhəli bilinən 90 nəfərdən ibarət 39 cinayətkar qrup ifşa olunub.

Paytaxt ərazisində baş vermiş 430 yol-nəqliyyat hadisəsində 147 nəfər həlak olub, 364 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə yol-nəqliyyat hadisələrinin sayı 4,4 faiz, xəsarət alanların sayı isə 7,1 faiz azalıb. Əməliyyat-xidməti fəaliyyətin mühüm istiqamətlərindən olan yol hərəkətinə nəzarət prosesində 668.406, o cümlədən sürət rejiminə əməl olunmaması ilə bağlı 303.969, ötmə və manevr qaydalarının pozulması ilə əlaqədar 25.738, nəqliyyat vasitəsinin sərxoş vəziyyətdə idarə olunması ilə bağlı isə 1769 inzibati xəta aşkar edilib.

Baş idarənin bir sıra idarə, xidmət və ərazi polis orqanlarının rəisləri məruzə ətrafında çıxış edərək hesabat dövründə görülmüş işlərdən, əldə olunmuş nəticələrdən, eyni zamanda, fəaliyyətdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün qarşıya qoyulmuş vəzifələrdən, həyata keçiriləcək konkret tədbirlərdən danışıblar.

Əməliyyat müşavirəsinə yekun vuran baş idarənin rəisi M.Seyidov 9 ayda paytaxtın polis orqanlarının cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmin edilməsi sahələrindəki fəaliyyətini ümumən müsbət qiymətləndirib, müxtəlif hüquqpozmaların, o cümlədən insan hüquq və azadlıqlarının pozulması hallarının əvvəlki illə müqayisədə xeyli azaldığını qeyd edib. O, müşavirə iştirakçılarının diqqətini qarşıda duran bir sıra həlli vacib məsələlərə yönəldib, tapşırıq və tövsiyələrini verib, nöqsanların aradan qaldırılması yollarını göstərib.

Polis general-mayoru Mirqafar Seyidov Daxili İşlər Nazirliyinin rəhbərliyini əmin edib ki, baş idarənin əməkdaşları bundan sonra da paytaxt ərazisində cinayətkarlıqla qətiyyətli mübarizəni əzmlə davam etdirəcək, sabitliyin, əmin-amanlığın, ictimai asayişin nümunəvi təmini istiqamətində qarşıya qoyulan bütün tapşırıqları və vəzifələri yüksək məsuliyyətlə və peşəkarlıqla yerinə yetirəcəklər.

***İnformasiya bölməsi***

## DEMOKRATİK VƏ HÜQUQİ DÖVLƏT QURUCULUĞUNUN ƏSAS QANUNU

**Hər bir ölkənin konstitusiyası dövlətin mühüm atributu olaraq, onun uzun illər boyu üçün tutacağı mövqeyi müəyyənləşdirir. Həmçinin dövlətin konstitusiyası onun nə dərəcədə demokratik olduğunun, insan hüquq və azadlıqlarına nə dərəcədə təminat verdiyinin göstəricisidir.**




1918-1920-ci illərdə 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin Əsas Qanununu qəbul edə bilməmişdi. Beləliklə, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun tarixi, əsasən, SSR-nin tərkibində olduğu dövrə düşür.

Ölkəmiz müstəqilliyinə qovuşduqdan sonra olduqca çətin şəraitdə, siyasi-hüquqi, sosial-iqtisadi vəziyyətin ağır olduğu bir dövrdə ölkənin ali hüquqi qüvvəyə malik sənədini – Konstitusiyasını hazırlamaq, özü də müxtəlif siyasi qüvvələrin təsirindən azad, demokratik dəyərlərə əsaslanan, xalqın iradəsini tam əks etdirən bir formada qəbul etmək olduqca çətin idi. Azərbaycan Respublikası Konstitusiyasının hazırlanması və qəbul edilməsi xalqımızın ümummilli lideri Heydər Əliyevin gərgin əməyi və siyasi uzaqgörənliyi nəticəsində mümkün oldu. Məhz 1994-cü ildə ümummilli lider Heydər Əliyevin sədrliyi ilə Konstitusiya komissiyası işə başladı və layihə ümumxalq müzakirəsinə verildi. 1995-ci il noyanrın 12-də ümumxalq referendum ilə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul olundu.

Konstitusiya dövlət və xalq arasında ən mühüm ictimai münasibətləri tənzimləyən, konstitusion quruluşun, dövlət hakimiyyəti təşkilinin əsaslarını özündə əks etdirən ali qanundur. Digərlərindən fərqli olaraq, konstitusiyanı ona görə "Əsas Qanun" adlandırırlar ki, o, ictimai həyatın bütün sahələrini əhatə edən münasibətləri nizama salır, cəmiyyətdə siyasi sabitliyin, ümumi maraqların təminatçısı kimi çıxış edir, dövlətin statusunu, fəaliyyət konsepsiyasını, gələcək prioritetlərini əks etdirir, şəxsiyyət, cəmiyyət və dövlət arasında münasibətlərin sivil qaydalarını müəyyən edir.

Konstitusiyada demokratik təsisatlar, hüquqi dövlətin atributları, hakimiyyət bölgüsü, insan hüquq və azadlıqları və onların təminatı kimi mütərəqqi müddəalar öz əksini tapmışdır. Dövlət müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq qalaraq digər xalqlarla dostluq, sülh, əmin-amanlıq şəraitində yaşamaq kimi ülvi niyyətlərin bəyan edilməsi konstitusiyamızın demokratik dəyərlərini əks etdirir.

Bu gün ölkəmizdə qanunun aliliyi təmin olunub, demokratiya inkişaf edir, dövlət və cəmiyyətin həyat qabiliyyətini təmin edən hüquqi baza yaradılıb, hər bir hüquqi və demokratik dövlət üçün ilkin və əsas şərt hesab olunan hakimiyyət bölgüsü prinsipini reallaşdırmaq üçün ardıcıl islahatlar həyata keçirilir.

İnsan və vətəndaş hüquq və azadlıqları qanunun aliliyi ilə birbaşa bağlıdır, biri-digərini tamamlayır. Dövlət hər kəsin konstitusiya ilə təsbit olunmuş hüquq və azadlıqlarının təminatçısıdır. Əlbəttə, orada nəzərdə tutulmuş hüquq və azadlıqlar hər bir fərdin cəmiyyət və digər şəxslər qarşısında məsuliyyətini, vəzifələrini də əhatə edir.

***Aytəkin Nəcəfova,***
***polis polkovnik-leytenantı***

# POLİS-VƏTƏNDAŞ MÜNASİBƏTLƏRİ
## GÜNBƏGÜN YAXŞILAŞMAQDADIR

**Bunu poçtumuzdakı vətəndaş müraciətlərinə əsaslanıb yazıram. Təkcə yenicə başa vurduğumuz oktyabr ayında (son 1 ayda da deyə bilərik) paytaxt Bakıdan və respublikamızın müxtəlif regionlarından nazirliyin rəhbərliyinə ünvanlanmış minnətdarlq məktublarına nəzər salsaq, gözəl bir mənzərənin şahidi olarıq. Amma tələsməyək, bu barədə bir az sonra.**

Azərbaycanın bu gün əmin-amanlıq, sabitlik və təhlükəsizlik şəraitində inkişaf etməsi, təbii ki, ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin düşünülmuş və məqsədyönlü siyasətinin təzahürüdür. Təsadüfi deyil ki, həmişə olduğu kimi, bu il də - yanvar ayından ta bugünə qədər ölkəmizdə cinayətkarlıqla mübarizə, ictimai qaydanın qorunması və ictimai təlükəsizliyin təmini vəzifələri layiqincə yerinə yetirilmiş, əməliyyat şəraiti bütövlükdə nəzarətdə saxlanılmış, daxili sabitlik dönməz xarakter almışdır. Qazanılmış uğurlar bir tərəfdən xidmətaparmanın təkmilləşdirilməsi, xidmət sahələri arasında qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi, polisin maddi-texniki bazasının möhkəmləndirilməsi və müasirləşdirilməsi ilə bağlıdırsa, digər tərəfdən də daxili işlər orqan və hissələrində mənəvi-psixoloji sağlamlığın, əməkdaşlar arasında möhkəm nizam-intizamın, işgüzar əhval-ruhiyyənin nəticəsidir.

Bununla yanaşı, polisin cəmiyyətdə nüfuzunun daha da yüksəldilməsi işinin düzgün təşkil edilməsi, polis əməkdaşlarının peşəkarlığının, cəsarət və fədakarlığının kütləvi informasiya vasitələrində işıqlandırılması, habelə daxili işlər orqanlarının fəaliyyəti və cəmiyyətdə rolu haqqında məlumatlandırma işinin günün tələbləri səviyyəsinə qaldırılması məqsədilə ötən il "Polis–vətəndaş münasibətlərinin daha da yaxşılaşdırılmasına, cəmiyyətdə polisin işgüzar nüfuzunun artırılmasına dair" tədbirlər planı hazırlanmış və Daxili İşlər Nazirliyi rəhbərinin müvafiq əmri ilə icraya yönəldilmişdir.

***Bu gün həmin plan üzrə həyata keçirilmiş tədbirləri təhlil edərkən görürük ki, daxili işlər orqanlarının şəxsi heyətinin Azərbaycan dövlətçiliyinə sədaqəti, insan hüquq və azadlıqlarının qorunması, daxili sabitliyin təmin edilməsi, cinayətkarlığa qarşı mübarizə və asayişin mühafizəsi sahəsində əldə etdiyi müsbət nəticələr vaxtlı-vaxtında və əhatəli formada ictimaiyyətə çatdırılmış, polis əməkdaşlarının peşəkarlğının, nazirliyin ayrı-ayrı struktur qurumlarının, orqan və hissələrin, xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyətinin işıqlandırılması məqsədilə ölkə mediasında, dövrü mətbuatda və elektron informasiya vasitələrində mindən çox məqalə, iki yüzə yaxın videomaterial yayımlanmışdır.***

Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələr ərazisində mütəşəkkil cinayətkarlıqla mübarizə üzrə koordinasiya bürosunun "Sodrujestvo" və nazirliyimizin "Asayişin keşiyində" jurnallarında və "Mübariz keşikdə", eləcə də "Polis" qəzetləri ilə yanaşı "Azərbaycan", "Xalq qəzeti", "Ədalət", "Şərq", "525-ci qəzet", "Bakı xəbər" və digər mətbu orqanlarda, aparıcı xəbər agentliklərində, oxucuların maraqla izlədikləri digər xəbər portallarında məqalələr və məlumatlar yerləşdirilmişdir. Həmçinin sözügedən mövzuların işıqlandırılması məqsədilə müraciətləri əsasında yerli və xarici televiziya kanallarına lazımi şərait yaradılmışdır.

Nazirliyin ötən ilin may ayından fəaliyyət göstərən rəsmi "Facebook" səhifəsində və "İnstaqram" sosial şəbəkəsində cinayətkarlıqla mübarizədə əldə olunan uğurlara, veteranların fəaliyyətinə və keçirilən digər tədbirlərə dair fotoşəkilli materiallar yerləşdirilərək istifadəçilərin nəzərinə çatdırılmışdır. Həmin səhifələri izləyənlərin sayı bu günə 25 min nəfəri ötmüşdür.

Sözügedən tədbirlər planının icrası ilə bağlı Polis Akademiyasında da əlavə tədbirlər planlaşdırılmış, orta rəis heyətinə yeni qəbul edilmiş əməkdaşların ilkin hazırlıq kursunun "Peşə etikası" fənninə polis-vətəndaş münasibətlərinin daha da yaxşılaşdırılması, cəmiyyətdə polisin nüfuzunun artırılması məsələlərini əhatə edən mövzular daxil edilməklə zəruri məlumatların verilməsi praktikası tətbiq edilmişdir. A.Heydərov adına Sıravi və kiçik rəis heyəti hazırlayan Məktəbdə isə ilkin hazırlıq kursu keçən dinləyicilərə "DİO əməkdaşlarının etik davranış Kodeksi" və "Polis əməkdaşının davranış qaydaları" "Ünsiyyət və etika" fənni üzrə ayrıca mövzu kimi tədris olunmaqdadır.

Həyata keçirilmiş tədbirləri uzun-uzadı sadalamadan bir məsələyə də diqqət yetirək: - Son 1 il 8 ayda respublikada keçirilən 1007 beynəlxalq, ictimai-siyasi, mədəni və idman tədbirlərində, o cümlədən Azərbaycan Respublikası Prezidentinin seçkiləri, Cənub Qaz Dəhlizi Məşvərət Şürasının IV iclası, VI Qlobal Bakı Forumu, Xəzər Neft və Qaz Konfransı, IV İslam həmrəyliyi oyunları, "Formula-1 Azərbaycan Qran Pri" yarışı, Gimnastika üzrə dünya кuboku, 26-cı Avropa çempionatı, Velosiped İdmanının BMX növü üzrə dünya çempionatı ərəfəsində ictimai asayiş və təhlükəsizlik etibarlı şəkildə təmin olunmuşdur.

Təbii ki, vətəndaşlarımız bunu görür və yazımızın əvvəlində qeyd etdiyimiz kimi, hər gün DİN rəhbərliyinin ünvanına çoxsaylı təşəkkür məktubları ünvanlayırlar. Respublikamızın müxtəlif rayonlarında yaşayan vətəndaşlar – İbrahimov Elman Eyyub oğlu, Sadıqov Diyaşar Novruzəli oğlu, Mürsəliyev Nəbi Məhəmməd oğlu, Nəzərov Vaqif Şahməmməd oğlu, Qarayev Fuad Azad oğlu, Möhbalıyev Mətləb Soltanməcid oğlu, Bağırov İqbal Səməd oğlu, Xəlilov Bünyad Etibar oğlu və onlarla, yüzlərlə başqaları fədakar Azərbaycan Polisinin səmərəli, fədakar fəaliyyətini təqdir edir, minnətdarlıqlarını bildirirlər.

Polisin vətəndaş məmnunluğu yaradan fəaliyyəti ilə bağlı ünvanımıza gələn məktublar vaxtaşırı və sistemli şəkildə ölkə mediasına da verilir. Söz yox ki, bütün bunlar polis-vətəndaş münasibətlərinin daha da yaxşılaşdırılması işinə xidmət edir.

**Rahib Qarayev,**
**DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi, polis polkovniki**

# "YERALTI ŞƏHƏR"in POLİSLƏRİ...

**Çox az adam olar ki, yaşadığı illər ərzində bir dəfə də olsun metrodan istifadə etməsin. Axı, metro vasitəsilə uzun məsafəni qısa bir zamanda qət etmək mümkündür ki, bu da vaxt itkisinin qarşısını alır. Təhlükəsizliyin təmin olunduğu, ən müasir sistemlərlə təhciz olunmuş nəqliyyat vasitəsi kimi metrodan istiadə etmək vətəndaşlarda böyük məmnunluq yaradır.**

Bakı metropoliteni 1967-ci il noyabrında qapılarını xalqın üzünə açıb. Həmin gün Bakı Soveti (indiki İçərişəhər) - Nərimanov sahəsində 5 stansiya istismara verilmişdir. Bu, keçmiş SSRİ-də beşinci, Yaxın Şərqdə isə ilk yeraltı elektrikli dəmir yolu idi.

O, vaxtdan keçən 51 ildə yeraltı yolların istismar fəaliyyətində xeyli dəyişikliklər olub.Gözəl, yaraşıqlı stansiyaların sayı artıb, metropolitenin texniki təchizatı zənginləşib, kadrları təkmilləşib. Metropolitenin vaqonlarının hamısı bu gün daşıma həcminin tələblərini yerinə yetirmək iqtidarındadır. Yollar, tunellər və oradakı bütün texniki qurğular təhlükəsiz hərəkəti təmin etməyə qadirdir.

Böyük strateji əhəmiyyət daşıyan Bakı Metropoliteninin tikintisi, inkişafı, perspektivi də ulu öndər Heydər Əliyevin uzaqgörənliyinin, zəhmətinin bəhrəsidir. "Metro Bakı üçün böyük bir nemətdir, böyük bir sərvətdir",- deyən ulu öndərin Bakı metropoliteninin bugünkü səviyyəyə çatmasında müstəsna xidmətləri olmuşdur. Onun rəhbərliyi dövründə metropoliteninin 14 stansiyası tikilib istifadəyə verilmişdir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin "Bakı metropoliteninin perspektiv inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" 2008–ci il 10 noyabr tarixli sərəncamı ilə sərnişin nəqliyyatı sistemini təkmilləşdirmək və şəhər nəqliyyatında hərəkətin gərginliyini azaltmaq məqsədilə "Bakı metropoliteninin 20 illik inkişafının Dövlət Proqramı" təsdiq edilmiş, yeni perspektiv sxem hazırlanmış, onun icrasına başlanmışdır.

Dövlətimizin başçısının 29 oktyabr 2006–cı il tarixli sərəncamı ilə hər il 8 noyabr metro işçilərinin peşə bayramı günü kimi qeyd edilir.

Son illər tikilib istifadəyə verilmiş və müasir üslubda bərpa edilmiş metro stansiyaları, özünün mükəmməl arxitekturası ilə Bakının memarlıq ənənələrini daha da zənginləşdirir, əsl mədəniyyət abidəsi kimi şəhərə yaraşıq verməklə yanaşı, ilk növbədə, çoxmilyonlu paytaxt sakinlərinin rahat və təhlükəsiz gediş–gəlişini təmin edir.

Yeraltı metro səltənətində burada çalışanların və minlərlə insanın təhlükəsizliyinin təmin olunmasında polislərimizin rolu danılmazdır. Yerin üstündə olduğu kimi, "yerin altında" da onlar gecəli-gündüzlü, sayıq, peşəkar xidmət aparırlar. Təbii haldır ki, böyük bir insan axını olan yerdə neqativ hallara da rast gəlmək mümkündür. Amma polislərimiz, hər zaman olduğu kimi, metroda da vətəndaşın yanında, cinayətə meyilli şəxslərin qarşısındadırlar. ***Bunun nəticəsidir ki, redaksiyamıza ünvanlanan məktublarda metroda yaranan nasazlıq zamanı, yaxud hər hansı ekstremal vəziyyətlərdə (bunun artıq bir neçə dəfə şahidi olmuşuq), ümumiyyətlə, hər hansı problem yarananda onlara göstərdikləri köməyə görə Azərbaycan Polisinə təşəkkürlərini bildirir, uğurlar arzulayırlar. Necə deyərlər, balığı ürəklə atsan dəryaya, balıq da bilər, Xaliq də...***

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# POLİSDƏ VƏ POLİSLƏ BİR GÜN

**Bir günlük də olsa polisin həyatı, iş rejimi barəsində onlarda aydın təsəvvür yaranacaqdı və bu görüşün özü də maarifləndirmə xarakteri daşıyırdı. Xətai rayonundakı Humanitar fənlər təmayüllü məktəb-liseyin şagirdlərinin bura gəlməsi isə RPİ-nin rəisi, polis polkovniki Muradəli Babayevin təşəbbüsü idi. Yaşadıqları ərazidə, məktəbdə, yolda rast gəldikləri, amma heç də həmişə ünsiyyət qurmadıqları polislə bağlı bu gün onlar daha çox məlumat toplayacaqdılar.**

Rayon Polis İdarəsinin geniş həyəti, əzəmətli görünüşü, ətrafında salınmış yaşıllığı şagirdlərin marağına səbəb olmuşdu. Onlar bura ilk dəfə gəlirdilər. İdarənin inzibati binası ilə tanışlıq Növbətçi hissədən başladı. Ərazi polis orqanlarında vətəndaşların ilk müraciət etdiyi ünvanın Növbətçi hissə olduğu barədə məsul növbətçi, polis zabiti şagirdlərə məlumat verdi.

"Siz şəxsiyyət vəsiqələrini və ümumvətəndaş pasportlarını haradan alırsınız" sualına uşaqların yarısı "ASAN xidmət, yarısı da polisdən" deyə cavab verdilər. Qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbəsindəki yeni avadanlıqlar da şagirdlərin diqqətini çəkdi. Onlar yeni nəsil şəxsiyyət vəsiqələrinin hazırlanma qaydası barədə də məlumatlandılar.



Hiss etdim ki, üzərinə "Müvəqqəti Saxlama Yeri" yazılmış dəmir qapılar şagirdlərin daha çox marağına səbəb oldu və bu nüans rəisin diqqətindən yayınmadı. Şagirdlərdən birinin "Burada kimi saxlayırlar?" sualına rəisin cavabı belə oldu: "Burda hər hansı bir cinayətdə şübhəli bilinən şəxslər müvəqqəti saxlanılır. Bəzən onların içində elələrinə rast gəlirik ki, dünyagörüşünə, intellektinə, istedadına heyfimiz gəlir. Gənc yaşda cinayət törədənlərlə söhbət zamanı valideyn nəzarətsizliyinin və təhsildən yayınmaların acı nəticələrini görürük. Ümidvarıq ki, onlar cəzalarını çəkdikdən sonra həyatın uçurumlara gedən axınından qurtulub cəmiyyət üçün normal vətəndaş olacaqlar."

"Elə bilirsiniz təkcə siz oxuyursunuz, müasir texnologiyalardan, kompyuterlərdən təkcə siz yararlanırsınız ?", - deyə şagirdlərə təbəssümlə müraciət edən polis rəisi üzərinə "Sinif otağı" yazılmış otağın qapılarını açdı və "Günümüzün tələbi yenilikləri öyrənmək, öyrəndiklərimizi isə təcrübədə tətbiq etməkdir. Törədilən hər bir cinayətdə dövrün öz izi var. Odur ki, kibercinayətkarlıqdan tutmuş, açılması asan görünən hər hansı bir cinayət faktı diqqətdə saxlanır, öyrənilir. Yəni polis bildikləri, oxuduqları ilə kifayətlənmir, hər gün, intellektini inkişaf etdirir, dünya təcrübəsini oxuyur, öyrənir. Gördüyünüz bu otaqda biz əməkdaşlarımıza peşə hazırlığı dərsləri keçirik. Hər hansı bir işdə müvəffəqiyyət qazanmaq, fərqlənmək, daha böyük uğur əldə etmək üçün oxumağa hər kəsin ehtiyacı var",- dedi.

Əksəriyyəti 10-cular və və 11-cilər olan şagirdlərə rəisin bu gün ölkəmizin iqtisadi, siyasi həyatı, yeniliklər, polisin fəaliyyəti, xidmətdə fərqlənən əməkdaşlar barədə oxuculara məlumat verən DİN-in mətbu orqanı "Mübariz keşikdə" və Bakı Şəhər Baş Polis İdarəsinin "Polis" qəzetləri haqqında məlumat verməsi, düzü, məni qürurlandırdı.

İdarənin akt zalında uşaqları daha bir sürpriz gözləyirdi. Veteranlar şagirdlərlə görüşə gəlmişdilər.

RPİ Veteranlar Şurasının üzvü Faiq Ağayev, polis kapitanı Aygül Həsənova polisi insanlara daha yaxından tanıdan və onu sevdirən bu cür maarifləndirici tədbirlərin yeniyetmələrin təlim-tərbiyəsində xüsusi əhəmiyyətini qeyd etdilər.

Məktəb-liseyin direktoru Nəzakət Əsgərova bu görüşün şagirdlərin xatirində dərin iz buraxacağına, onların gələcəyini düşünən, zərərli vərdişlərdən uzaq olmaq üçün hətta ölümün gözünə belə dik baxan polislərimizi unutmayacaqlarına əminliyini bildirdi.

Daha sonra şagirdlərə polislərin hədiyyəsi-kitablar təqdim olundu.

*Hafiz Təmirov,*
*polis mayoru*

# BARƏLƏRİNDƏ EŞİTMİŞDİK, ÖZLƏRİNİ DƏ GÖRDÜK

**Təxminən son bir ayda ardı-ardınca Nizami Rayon Polis İdarəsi əməkdaşlarının cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində keçirdikləri uğurlu əməliyyatlar barədə məlumatlar kütləvi informasiya vasitələrində yayımlandı.**

RPİ-nin rəisi, polis polkovniki Ədalət Abbasovla bizim də söhbətimiz bu mövzuda oldu. Rəis ondan başladı ki, cari ilin 9 ayı ərzində rayon üzrə baş vermiş ümumi cinayətlərin 76.5 faizinin, ağır və xüsusilə ağır cinayətlərin isə açılmasının 78.4 faizinin üstü açılmışdır. Qanunsuz dövriyyədən ümumilikdə 31 kiloqram 864 qram narkotik vasitə çıxarılmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 kiloqram 576 qram çoxdur.

Qazanılmış nəticədə PPXB-nın də əməyi az olmamışdır. Bölüyün xidməti fəaliyyəti ilə daha yaxından tanış olmaq istəyimizi bildirəndə rəis: "Yaxşı olar ki, bu barədə bölüyün komandiri, polis mayoru Yusif Yusifovla söhbət edəsiniz",-dedi. Polis polkovniki Ədalət Abbasov onu da qeyd etdi ki, bölüyün şəxsi heyəti şəhər və rayon ərazisində keçirilən bütün kütləvi tədbirlərdə öz nümunəvi xidmətləri ilə seçilirlər.

PPXB-nın komandiri, polis mayoru Y.Yusifov bölüyün xidməti barədə danışarkən dedi ki, rayon ərazisində törədilmiş 657 cinayətdən 337-nin açılmasında əməkdaşların iştirakı olmuşdur. Müxtəlif qanun pozuntusuna görə, cinayət xətti üzrə 23, inzibati xətalar üzrə 937 olmaqla ümumilikdə 960 nəfəri RPİ və ərazi PB-yə təhvil vermişlər. Yol hərəkəti qaydalarını pozduğuna görə 488 nəfərə inzibati protokol tərtib edilmişdir. Əməkdaşlar tərəfindən rayon ərazisində tüfeyli həyat tərzi keçirən, dilənçiliklə, qanunsuz küçə ticarəti ilə məşğul olan şəxslərlə mübarizə istiqamətində müəyyən tədbirlər davamlı olaraq görülmüşdür.

Bölüyün zərif cinsdən olan nümayəndəsi, polis serjantı Aygün Səmədova kişi həmkarlarından geri qalmayaraq cinayətkarlıqla mübarizədə barışmaz mövqe sər-



giləyir. Misal olaraq, elə bu yaxınlarda baş vermiş bir soyğunçuluq zamanı Aygünün məharətindən söhbət açdı. Belə ki, Aygün işdən çıxıb evə gedən zaman bir qadının qışqıraraq çantasının qaçırılmasının şahidi olur. Tez həmin şəxsin arxasıyca təxminən bir kilometrəcən qaçaraq onu yaxalayaraq, özündən qat-qat cüssəli olmasına baxmayaraq, fənd işlədərək zərərsizləşdirib. Bu zaman cəsarətli xanım əməkdaşımızın özü də xəsarət alaraq qolunu sındırıb. Aygün tibbi müalicəsini aldıqdan sonra sıralarımıza qayıdıb.

**Polis mayoru Yusif Yusifovla** söhbətdən belə göründü ki, tələbkar olduğu qədər də əməkdaşlarının qeydinə qalır. Fürsətdən istifadə edib onun özü barəsində də bəzi məlumatları öyrəndik. 1983-cü ildə Yevlax rayonunda anadan olub. Heydər Əliyev adına Ali Hərbi Məktəbi və Polis Akademiyasını bitirib.PPXB-nin tağım komandiri olub, 2015-ci ildənsə bölüyün komandiridir. Keçən il "Əla xidmətlərinə görə" döş nişanı ilə təltif olunub.

Yeri gəlmişkən, atası Elburus Yusifov da ömrünü polis peşəsinə həsr edən veteranlarımızdandır.

Növbəti yazılarımızda bölük əməkdaşlarının keçirdikləri uğurlu əməliyyatlarla sizləri də tanış edəcəyik.

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

# HƏM RAHAT, HƏM DƏ TƏHLÜKƏSİZ

**Ölkəmizdə keçirilən beynəlxalq tədbirlərə qatılan və ya turist kimi gələn əcnəbilərin gedəcəkləri ünvanlara vaxtında və təhlükəsiz yetişməsində Bakı metrosunun öz payı var. Elə paytaxt sakinlərinin əksəriyyətinin metrodan istifadə etməsinin əsas səbəblərindən biri də darıxdırıcı tıxaclarda vaxt itirməməkdir. Burda təhlükəsizlik yüksək səviyyədə təşkil olunub.**




Düzdür, bəzən cibgirlər metroya da "əl uzatmaq" istəsələr də polislərimizin ayıq-sayıqlığı nəticəsində ifşa olunub, öz layiqli cəzalarına çatırlar. Deməli, yerin üstündə və altında da polis bizə, sizə təhlükədən daha yaxındır.

Metropolitendə Polis Şöbəsinin əməkdaşları əmanətə etibarlıdırlar. Dövlətimiz metronun, bu strateji obyektin təhlükəsizliyini onlara həvalə edib. Əmanət həm də ona görə dedik ki, vətəndaşlar tərəfindən qatarlarda, platformalarda unudulan əmlaklar onların himayəsində olanda vaxtında öz sahibinə yetişir.

Bu günlərdə ölkəmizə rusiyadan gələn turistə kömək əlini uzadan, onun üzləşdiyi problemi həll edən həmkarlarımızdan növbəti yazını hazırlamaq üçün Metropolitendə Polis Şöbəsində olduq. Söhbət təhlükəsizlikdən başlayıb, metroda unudulan əşyalara gələndə Şöbə rəisi, polis polkovniki Samir Hüseynov qarşımıza bir jurnal qoydu. Burada 153-dən çox fakt qeyd olunmuşdu. Onların əksəriyyəti ünvanına çatıb-тələbə biletindən tutmuş, nişan üzüyünə qədər. "Turist məsələsinə gəlincə, bununla bağlı son hadisəni bir az ətraflı danışmaq istəyirəm",- dedi Samir Hüseynov.

Oktyabrın 25-nə keçən gecə saat 00:10 radələrində Bakı metropoliteninin "Avtovağzal" stansiyasında xidmət aparan əməkdaşlara yaxınlaşan bir nəfər portmanatını itirdiyini bildirib. Polis məntəqəsinə dəvət olunan **bu şəxs Rusiyadan ölkəmizə turist kimi gəlmiş Nikita Runkovski idi.** Paytaxtdakı hostellərin birində qaldığını deyən turist Şəkidən gələrkən portmanatını taksidə unutduğunu, gecələmək üçün pulu olmadığından ümid yeri kimi polisə müraciət etdiyini deyib.

Polis əməkdaşları müəyyən məlumatları dəqiqləşdirdikdən sonra Nikitanı hostelə yerləşdiriblər və qısa vaxtda turisti Bakı Beynəlxalq Avtovağzalına gətirən taksini müəyyənləşdiriblər. Sürücü həqiqətən də portmanatın avtomobildə qaldığını deyib və onu polislərə təqdim edib.

Səhər tezdən N.Runkovski ilə əlaqə saxlayıb bu barədə məlumat verəndə o, çox təəccüblənib. Rusiyalı turist belə operativliyə və peşəkarlığa, xüsusən də xoş münasibətə görə təşəkkürünü bildirib.

*T.Hafiz,*
*C.Natiq*

# POLİS VETERANLARININ KÖMƏKLİYİ İLƏ...

**Polis veteranları cinayətkarlıqla mübarizəyə öz layiqli töhfələrini verirlər. Onlar yeniyetmə və gənclər arasında antinarkotik təbliğatın güclənməsi, dini radikalizmə qarşı mübarizə, azyaşlılar arasında erkən nikah və intihar hallarının qarşısının alınması məqsədilə yerli polis şöbələrinin rəhbərliyi və aidiyyatı xidmətlərin əməkdaşları ilə birgə ayrı-ayrı təhsil müəssisələrində, vətəndaşlarla görüşlər keçirərək hüquqi mövzularda maarifləndirmə işlərini davam etdirirlər.**

Cari ilin 9 ayı ərzində veteranların köməyi ilə respublika üzrə 3247 cinayətin açılması təmin edilib.

Ötən müddət ərzində polis veteranları şəxsi heyətlə təlim-tərbiyə işinin aparılmasına, gənc əməkdaşların peşə vərdişlərinin artırılmasına, onlarda dövlətə və dövlətçiliyə, anda, xidməti vəzifə borcuna sədaqət hissinin formalaşdırılmasına yönəlmiş tədbirlərdə də fəal iştirak ediblər. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, onların zərərli vərdişlərdən uzaq tutulması istiqamətində profilaktik xarakterli tədbirlərin həyata keçirilməsi də daim diqqətdə saxlanılıb.

Göstərilən dövr ərzində veteranlar 2610 dəfə respublikanın müxtəlif təhsil müssisələrində (orta məktəblərdə, liseylərdə, kolleclərdə və s.), həmçinin ayrı-ayrı kollektivlərdə vətəndaşlar qarşısında çıxışlar edib, tövsiyələrini veriblər.

Səmərəli və məqsədyönlü fəaliyyətlərinə görə polis veteranlarından bir qrupu DİN rəhbərliyi və Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı tərəfindən mükafatlandırılıb.

*Zeyni Hüseynov,*
*polis serjantı*

## DAXİLİ İŞLƏR NAZİRLİYİ
### SOSİAL ŞƏBƏKƏLƏRDƏ

Facebook
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://www.facebook.com/mia.gov.az/

Instagram
Adı- azerbaycan.din
Keçid linki- https://www.instagram.com/azerbaycan.din/

Twitter
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://twitter.com/MIAAzerbaijan

Youtube
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://www.youtube.com/channel/UCnOFIn-vwFvkLMCMGyg2j-w/featured

# ƏN BÖYÜK BEYNƏLXALQ TƏŞKİLAT

**Oktyabrın 24-ü Birləşmiş Millətlər Təşkilatı Günüydü. Bu il təşkilat özünün 73-cü ildönümünü qeyd etdi. 73 il öncə, 1945-ci ilin 24 oktyabrında ABŞ-ın Nyu-York şəhərində dünyada sülhü, təhlükəsizliyi qorumaq və millətlər arasında iqtisadi, ictimai və mədəni əlaqələrin yaradılması üçün müstəqil dövlətlərin könüllü birləşməsi BMT adlı beynəlxalq təşkilat təsis edildi. Beynəlxalq münasibətlərdə silahlı qüvvə tətbiqini ilk dəfə qadağan edən sənəd BMT Nizamnaməsi olmuşdur. BMT-nin Nizamnaməsi 1945-ci ilin aprelində ABŞ-ın San-Fransisko şəhərində keçirilən konfransda 50 dövlətin nümayəndəsi tərəfindən imzalanmış və həmin ilin 24 oktyabrında BMT-nin yarandığı gün qüvvəyə minmişdir.**

Beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün əsas məsuliyyət BMT-nin Təhlükəsizlik Şurasının üzərinə qoyulmuşdur. BMT-nin əsas orqanı Təhlükəsizlik Şurası 15 üzvdən ibarətdir. Bu üzvlərdən beşi daimi üzvlük statusuna malikdirlər və veto hüququna sahibdirlər. Bu ölkələr ABŞ, Rusiya, ÇXR, İngiltərə və Fransadır. Təşkilatın strukturu isə 6 əsas orqandan ibarət olaraq belə formalaşmışdır: Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, İdarəetmə Şurası, Beynəlxalq Məhkəmə və Katiblik.

Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul olunmuşdur. 2000-ci ildə BMT üzvlərinin sayı 189-a çatmışdı. Hazırda isə təşkilata üzv ölkələrin sayı 193-dür. Müstəqil dövlətlərdən yalnız Vatikan BMT-nin üzvü deyil. BMT yarandığı vaxtdan bəri onun səkkiz baş katibi olmuşdur: Trüqve Halvdan Li (Norveç), Daq Hammarşeld (İsveç), U Tan (Birma), Kurt Valdhaym (



Avstriya), Havyer Peres de Kuelyar (Peru), Butros Butros Qali (Misir), Kofi Annan (Qana) və indiki Antoniu Quterreş(Portuqaliya). BMT-də rəsmi olaraq ingilis, ərəb, çin, fransız, rus və ispan dilləri işlənir. BMT yarandığı dövrdə hazırda onun üzvü olan ölkələrdən üçdə biri müstəmləkə idi.

Ermənistan ordusunun torpaqlarımızı işğal etməsi məsələsi dörd dəfə BMT-də müzakirə olunmuş, bu işğalı pisləyən və işğal olunmuş əraziləri qeyd-şərtsiz tərk etməyi tələb edən 822, 853, 874 və 884 nömrəli qətnamələr qəbul edilmişdir. Təəssüf ki, BMT-nin bu qətnamələri indiyədək yerinə yetirilməmişdir.

2011-ci il oktyabrın 24-də Azərbaycanın həyatında çox əlamətdar və tarixi hadisə baş verib. BMT Təhlükəsizlik Şurasına seçkilərdə Azərbaycan bu mötəbər təşkilatın üzvü seçilib. Gərgin şəraitdə keçən və bir neçə turdan ibarət səsvermədə 155 ölkə Azərbaycanın namizədliyini dəstəkləyərək, etimad göstərərək bu təşkilata üzv seçib. Prezident İlham Əliyev bu əlamətdar hadisə münasibətilə verdiyi bəyanatda deyib: "Bu qələbə Azərbaycan xalqının qələbəsidir. Bu qələbə Azərbaycan dövlətinin qələbəsidir, siyasətimizin təntənəsidir".

# QALİB OLDULAR

**Polis Akademiyasında əyani təhsil alan I-V kurs kursantlarının döyüş və fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi, eyni zamanda, ekstremal vəziyyətlərdə silahın tətbiqində və istifadəsində sabit vərdişlərə yiyələnməsi, onlarda yüksək psixoloji dayanıqlığın və peşə sayıqlığının formalaşması, həmçinin möhkəmlənməsi məqsədilə "Ən yaxşı atıcı" adı uğrunda yarış keçirilmişdir.**



Hərbi kafedranın rəisi, polis polkovniki Hacı Aslanov atəş hazırlığının polis əməkdaşı üçün əhəmiyyətini vurğulamış, sonra baş müəllim, polis polkovnik-leytenantı Elşən Hacıyev tabel silahından istifadə, davranış və təhlükəsizlik qaydaları izah etmişdir.

Nəticələr qiymətləndirilmiş və qaliblər müəyyən olunmuşdur. Yarışın nəticələrinə görə V kurs komanda, V kursdan polis sıravisi Ramilə Allahverdiyeva şəxsi birincilikdə yüksək nəticə əldə edərək birinci yerə layiq görülmüşdür.



Qalib komandaya keçici kubok verilmiş, yarış iştirakçıları mükafatlandırılmışdır.

*Aytən Tahirova,*
*polis leytenantı*

# ANONS

Cari ilin 9 ayı ərzində narkotiklərlə mübarizə sahəsində hüquq-mühafizə orqanları tərəfindən 2641 fakt aşkar edilmişdir ki, onlardan 834-ü satış məqsədilə qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma, 1527-i satış məqsədi olmadan narkotik vasitələri, psixotrop maddələri və onların prekursorları qanunsuz olaraq əldə etmə və saxlama, 229-u qanunsuz olaraq narkotik xassəli bitkiləri kultivasiya etmə, 51-i isə digərləri təşkil etmişdir...

Prezident Vladimir Putin ilin əvvəlindən Rusiyada qarşısı alınan terror aktlarından danışıb. O, müvafiq informasiyanı yüksək rütbəli zabitlər və prokurorlarla görüşündə səsləndirib. "Bu ilin 9 ayı ərzində Federal Təhlükəsizlik Xidməti tərəfindən 26 terror istiqamətində cinayətin qarşısı alınıb ki, onlardan da 15-i terror aktıdır",-deyə Putin qeyd edib.

Ölkə başçısı güc strukturlarını bundan sonra da Milli Antiterror Komitəsi ilə koordinasiya şəklində qətiyyətli və effektiv şəkildə əməkdaşlıq etməyə çağırıb.

*****

***Türkiyədə milli təhlükəsizliyə birbaşa təsir edən strateji qurumların rəhbərləri və onların sərəncamındakı layihələrdə çalışanlar haqqında təhlükəsizlik araşdırmasının aparılması ilə bağlı dəyişiklik edilib. Artıq Türkiyə Silahlı Qüvvələrinin personalı da daxil olmaqla bütün qurumların təhlükəsizlik yoxlaması Milli İstihbarat Təşkilatı və ya Polis Baş İdarəsi tərəfindən aparılacaq. İstintaq başlamazdan əvvəl isə şəxsin razılığı alınacaq. Əsasnaməyə görə, yoxlamalara dair tələblər Prezidentə göndəriləcək. Təhlükəsizlik araşdırması ən geci 60 iş günü ərzində başa çatdırılacaq.***




*****

Türkiyədə şadlıq və sevinc əlaməti olaraq havaya atəş açılmasına rəsmən qadağa qoyulur. Daxili İşlər Nazirliyi 81 vilayətin vali və muxtarlarından şənliklərdə havaya atəş açanlar haqqında yazılı olaraq polisə məlumat vermələrini xahiş edib.

Qeyd olunur ki, məclis başlamazdan əvvəl tədbir sahiblərindən mərasimdə silahdan istifadə edilməyəcəyi barədə yazılı iltizam alınacaq.

*****

***Ukrayna KİV-lərinin xəbərinə görə, bu ölkədə 200 mindən artıq ukraynalı insan alverinin qurbanı olub. Bu barədə sosial siyasət nazirinin müavini məlumat verib.***

***Nazir müavininin sözlərinə görə, sosial müdafiə strukturları 1000 nəfərə yaxın qurbanın şəxsiyyətini müəyyən etməklə onlara lazımi yardım göstərib. Bu zaman, insan alverinin ən populyar istiqaməti əmək istismarına cəlb etməkdən ibarət olub.***

*****

İstanbulda Şərif Can adlı şəxs il ərzində polisə 45.210 dəfə zəng etdiyi üçün həbs olunub.

O, 2017-ci ilin mayından 2018-ci ilin mayına qədər gün ərzində 100 dəfə polisə zəng edib və hər dəfə operatordan onunla danışmasını xahiş edib. Şərif polis işçisinə xidməti vəzifəsini yerinə yetirməyə mane olduğu üçün məhkəməyə çıxarılacaq.

İstintaq zamanı 55 yaşlı bu adam depressiya və yalnızlıqdan əziyyət çəkdiyini bildirib və kiminləsə danışmaq üçün polisə zəng etdiyini deyib.

*****

***Malinin paytaxtı Bamakoda saxta dollar hazırlayanlara qarşı əməliyyat keçirilib. Polisin saxladığı bir nəfərin ifadəsi əsasında əməliyyat genişləndirilib. Üç ünvanda keçirilən əməliyyat nəticəsində 41 milyon dəyərində saxta ABŞ dolları müsadirə olunub, 5 nəfər isə həbs edilib.***

*Natiq Cavadov,*
*polis kapitanı*

## Oktyabrın 24-dən 30-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 769 cinayət qeydə alınmış, onların 110-u «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 45 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 229 nəfər, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 5 nəfər, borclu şəxs qismində axtarışda olan 138 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 21 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 7 nəfər ölmüş, 30 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 40 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 152 nəfər saxlanılmışdır.

# MARAQ DÜNYASI



Dünyanın bir nöqtəsindən digər nöqtəsinə 4 saatda uçmaq mümkündürmü? Bu, hazırda imkansız kimi görünsə də "Reaction Engines "şirkəti bunu reallaşdırmağı düşünür. "Skylon" adı verilməsi planlaşdırılan təyyarə 2019-cu ildə test uçuşuna çıxacaq. Pəncərəsiz təyyarənin 1.1 milyard dollara başa gəlməsi gözlənilir. Bu texnologiya dünya üzərindəki məsafə anlayışını aradan qaldıracaq.

"Business İnsider" saytının xəbərinə görə, təyyarə eyni zamanda kosmik cihaz kimi də işləniləcək. Təyyarəni hazırlayan komandanın baş mühəndisi Alan Bold, istifadə edilən yüksək soyutmaya malik təyyarənin çox yüksək sürətə çatacağını deyir.

Təyyarənin texnologiyasını qısaca "daha çox güc, daha çox sürət",- deyə izah edən Bond, səs sürətinin beş qatına çıxacaqlarını iddia edir.

*****

Qərbi Avstraliya ştatının "Beta Hunt" mədənində qazma işləri aparan Henri Doul dünyanın ən böyük qızıl külçəsini aşkarlayıb. 88,9 kiloqramlıq külçədə 63,5 kiloqram saf qızılın olduğu güman edilir. Külçə ilkin olaraq 2 milyon dollar məbləğində qiymətləndirilib.

Həmin külçəni tapan qazmaçı az sonra 59,69 kiloqram çəkidə daha bir qızıl külçəyə rast gəlib.

*****

Avtomatlaşdırılmış mini-supermarketin açılması ideyası informasiya texnologiyaları mütəxəssisi Robert Eliasona məxsusdur. O, insan əməyini tamamilə əvəz edən mobil proqram işləyib hazırlayıb.

Mağaza gecə-gündüz işləməsinə baxmayaraq, qapısı həmişə bağlıdır. Alıcı içəri girmək üçün smartfonda proqramı aktivləşdirməlidir.

Kassası yoxdur, hesab ayda bir dəfə alıcının telefonuna göndərilir. Proqramda həmçinin müştəriyə dəstək xidməti olacaq ki, alıcı mağazada hansı məhsulların çatışmadığını qeyd edə bilsin. Mağazaya oğru girərsə, R.Eliasonun telefonuna dərhal bildiriş göndərilir.

Robert Eliason gələcəkdə ölkənin digər yaşayış məntəqələrində belə mağazalar inşa etməyi planlaşdırır. Bu cür supermarketlərin açılması ölkədə kiçik ərzaq mağazalarını bazardan sıxışdırıb çıxaracaq.

*****



Almaniyanın Drezden şəhərində olan binanın mühəndislik möcüzəsi olan bir xüsusiyyəti var. Binanın adı Neustadt Kunsthofpassagedir. Yağış yağanda musiqi çalan bu bina musiqiçilər və mühəndislər tərəfindən yaradılıb. Yəni bina hər yağış yağdığında şəhərdə yaşayanlara musiqi ifa edir.

Binaya turistlərin də marağı çox artıb.

*Ruhiyyə Əliyeva,*
*polis leytenantı*

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.279
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00